## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 21-ci hissə ləğv edilsin.

1.2. Aşağıdakı məzmunda 28-1-ci hissə əlavə edilsin:

| **28-1. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | |
|---|---|
| 28-1.1. | Uyğunluğun qiymətləndirilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.2. | Uyğunluğu qiymətləndirən qurumun akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.3. | Xarici ölkənin uyğunluğunu qiymətləndirən qurumunun Naxçıvan Muxtar Respublikasının ərazisində uyğunluğu qiymətləndirmə fəaliyyətinin razılaşdırılması üçün müraciətin və sənədlərin qəbulu |

| | |
|---|---|
| 28-1.4. | Texniki reqlamentlər, standartlar və keyfiyyətin qiymətləndirilməsi prosedurlarına dair sorğuların onlayn təqdim edilməsi |
| 28-1.5. | Standarlaşdırma sahəsində normativ sənədlərin qeydiyyatı və onlarda dəyişiklik aparılması üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.6. | Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.7. | Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyesterində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.8. | İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.9. | Qida təhlükəsizliyi sertifikatının verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 28-1.10. | Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması üçün müraciətin və sənədlərin qəbulu |

**Naxçıvan Muxtar Respublikasının**
**Baş Naziri** **Səbuhi Məmmədov**

20 oktyabr 2020-ci il

№ 179